UOT 336.71:336.77

Lalə Əbdülrəhim qızı ŞAHBAZOVA,
Lənkəran Dövlət Universitetinin dissertantı,
Azərbaycan Respublikası,
E-mail: shahbazova1995@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.07

AZƏRBAYCANDA BANKLARIN KREDİT PORTFELİNİN ŞAXƏLƏNDİRİLMƏSİ YOLLARI

Xülasə

Tədqiqatın məqsədi – Azərbaycanda bankların kredit portfelinin şaxələndirilməsi yollarının müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası kimi təhlil, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, Azərbaycanda bankların kredit portfelinin diversifikasiyalaşdırılması problemləri üzrə elmi əsərlərə və analitik materiallara istinadlar olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti alınmış elmi nəticələrdən hazırkı dövrdə bankların kredit portfelinin strukturunun təkmilləşdirilməsi və daha səmərəli kredit portfeli mexanizmlərinin hazırlanması ilə bağlıdır.

Tədqiqatın nəticələri nöqteyi-nəzərindən qeyd etmək olar ki, alınmış nəticələr qlobal çağırışlar dövründə bankların kredit siyasətinin təkmilləşdirilməsi və kredit portfelinin mövcud strukturunun şaxələndirilməsi baxımından daha səmərəli tədbirlərin və mexanizmlərin hazırlanmasında faydalı ola bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, qeyd etmək lazımdır ki, mühüm elmi yenilik kimi yeni şəraitdə bankların kredit portfelinin şaxələndirilməsinin qaçılmaz bir proses olduğunun əsaslandırılmasıdır. Bununla bağlı olaraq, bankların kredit siyasətindəki çatışmazlıqlar və kredit portfelinin şaxələndirilməsi problemləri araşdırılmış və açıqlanmışdır. Müasir dövrdə kredit portfelinin problemlərinə kompleks və sistemli yanaşmanın vacibliyi ön plana çəkilmişdir. Qlobal transformasiyalar və yeni çağırışlar şəraitində Azərbaycanın banklarında kredit portfelinin şaxələndirilməsi istiqamətlərində tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, banklar, bank krediti, kredit portfeli, kredit portfelinin şaxələndirilməsi, kredit portfelinin problemləri.

Giriş

Müasir dövrdə Azərbaycanda bankların uğurlu fəaliyyəti düzgün formalaşmış kredit siyasətindən önəmli dərəcədə asılıdır, çünki bankın kredit portfelinin məqbul keyfiyyətinin təmin edilməsi və kreditin qaytarılması onun kreditləşdirmə nəticələrinin effektivliyinə birbaşa təsir göstərir. Müasir bankın kredit portfelinin keyfiyyətinin idarə edilməsinin səmərəliliyinin artırılması, artan kreditləşdirmə həcmi kontekstində onun kredit fəaliyyətinin keyfiyyətini yüksəltməyin yollarından biridir. Azərbaycan iqtisadiyyatının hazırkı şəraitində mükəmməl formalaşmış optimal kredit portfeli və risklərin idarə edilməsi sisteminin formalaşdırılması əsas şərtlərdəndir. Bu yollarla bankların kreditləşdirmə fəaliyyətini aktivləşdirmək mümkündür. Bankların kreditləşmə fəaliyyətini aktivləşdirmək məqsədilə, ilk öncə, tövsiyə olunur: banklar üçün vergitutma sisteminin təkmilləşdirilməsi, məcburi ehtiyatlar üzrə siyasətə dəyişikliklərin edilməsi; real sektora kommersiya bankları tərəfindən verilən kreditlərin yenidən maliyyələşdirilməsi təcrübəsinin inkişafı; bank kreditləşdirilməsinin stimullaşdırılması strategiyasının reallaşdırılması çərçivəsində bank fəaliyyətinin risklərinin azaldılması; bank kreditlərinə tələbatın artırılması məqsədilə şəraitin təmin edilməsi mexanizminin hazırlanması və tətbiqi və s. [5, s.21].

Müasir dövrdə Azərbaycan iqtisadiyyatında bankların kredit fəaliyyətinin əhəmiyyəti artır. Bu, əsasən ölkədə makroiqtisadi vəziyyət nəticəsində bankların resurs bazasının artması, kredit bazarı-

nın inkişafı, sahibkarlıq subyektlərinin maliyyə vəziyyətinin yaxşılaşması, kiçik və orta biznesin tamhüquqlu subyekt bazarı kimi fəaliyyət göstərməsi ilə bağlıdır. Məlumdur ki, bank fəaliyyəti müxtəlif risk növləri ilə xarakterizə olunur ki, bunlardan biri kredit riskidir. Kredit riski artan kredit həcmləri şəraitində öhdəliklərin ödənilməməsi ilə əlaqədardır, sistemli önəm daşıyır və digər risklərə səbəb olur. Bu risk növü kreditin tam və ya qismən qaytarılmaması və ya kreditin ödənilməsinin təxirə salınması şəklində özünü göstərir.

Bankların kredit portfelinin şaxələndirilməsi problemlərinin tədqiqi

Qeyd edək ki, verilmiş kreditlərin qaytarılmaması və ya vaxtında ödənilməməsi və faizlərin ödənilməməsi səbəbindən bankların kredit fəaliyyətində qeyri-müəyyənlik səviyyəsi xeyli dərəcədə artır, yəni kredit riski artır. Kredit portfelinin riskinin qarşısını almaq üçün lazımdır: kreditləşmə şərtlərinin təhlili; borcalanların diqqətlə seçilməsi; borcalanların maliyyə vəziyyətinə, onların krediti ödəmək qabiliyyətinə (istəklərinə) daim nəzarət. Bütün bu tələblər yerinə yetirildikdə, bank əməliyyatı, yəni kreditləşmə uğurla reallaşdırılır.

Kredit riski bu və ya digər dərəcədə kredit kapitalı bazarında daimi dövriyyəyə malik olduğuna görə hər hansı bank təşkilatına və bank olmayan kredit təşkilatına xasdır. Kommersiya bankında kredit riskləri ilə uğurlu iş bir çox amillərdən asılıdır: düzgün tərtib edilmiş kredit siyasəti, borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi üsulları, mümkün kredit itkiləri üçün məcburi ehtiyatların formalaşdırılması tələblərinə uyğunluq, habelə kredit portfelinin diversifikasiyası. Qeyd etmək lazımdır ki, kredit riskinin səviyyəsi kredit verən təşkilatlar arasında əhəmiyyətli dərəcədə dəyişir. Bir tərəfdən istehlak kreditləşməsinin artımı kredit portfelinin diversifikasiyasına imkan verir, digər tərəfdən isə bank üçün əlavə təhlükələr yaradır, çünki istehlak kreditlərində vaxtı keçmiş kreditlərin səviyyəsi korporativ kreditləşmə ilə müqayisədə xeyli yüksək olur. Bu onunla bağlıdır ki, istehlak kreditlərinin əsas girov mənbəyi vətəndaşların likvid olmayan şəxsi əmlakıdır və buna görə satışı çətinləşir. Bundan əlavə, borcalanların müflisləşməsi ilə bağlı qanunvericilik bazası olmadığı halda, bankın borcunu ödəməyənlərlə məşğul olması və müvafiq olaraq borcun tənzimlənməsi prosedurunu təmin etmək çətindir. Beləliklə, kreditləşmənin payının artması bankın kredit riski səviyyəsinin artmasına səbəb olur [9, s.49]. Qeyd edək ki, Azərbaycanın Mərkəzi Bankının idarə heyətinin kredit riskləri ilə bağlı müvafiq qərarı da vardır ki, həmin qərarda borcalan və ya borcalan qrupları üçün kredit risklərinin maksumum miqdarı ilə bağlı tələblər müəyyənləşdirilmişdir [4].

Kredit riski anlayışı kredit portfelinin keyfiyyəti ilə sıx bağlıdır və həmin portfelin formalaşdırılması kredit təşkilatlarının fəaliyyətində əsas elementlərdən biridir. Kredit təşkilatlarının fəaliyyətinin maliyyə nəticəsi, onların bazarda sabit mövqeyi və işgüzar nüfuzu kredit portfelinin keyfiyyətindən və strukturundan əhəmiyyətli dərəcədə asılıdır. Bank təşkilatı fiziki və hüquqi şəxslərə kreditlərin verilməsi üçün öz kredit portfelini yaradır. Tədqiqatçıların əksəriyyəti kredit portfelinin mahiyyətinin müəyyənləşdirilməsi prosesində onun tərkib hissələrinin təsnifləşdirilməsində yeganə meyar kimi yalnız kredit riskinə istinad edirlər. Kredit portfelinin mahiyyətini ən dəqiq başa düşmək üçün ona birbaşa təsir edə biləcək bir sıra amillərə, yəni kredit portfelinin likvidlik dərəcəsinə və gəlirlilik səviyyəsinə diqqət yetirməyə dəyər. Xarici iqtisadi ədəbiyyatda verilən kreditlərin strukturunun və keyfiyyətinin xüsusiyyətləri müəyyən meyarlar əsasında, qarşıya qoyulmuş idarəetmə məqsədi əsasında təsnifləşdirilən kredit portfeli kimi nəzərdən keçirilir. Yəni xarici iqtisadçılar kredit portfellərinin mahiyyətinin müəyyənləşdirilməsində kredit idarəçiliyinin bir sıra komponentlərini daxil edirlər.

Kredit portfeli təkcə ən böyük aktiv və əsas gəlir mənbəyi deyil, habelə istənilən bankın sabitliyi və təhlükəsizliyi üçün ən böyük risk mənbələrindən biri hesab olunur. Qeyd edək ki, kredit portfelinin keyfiyyət göstəricisinin səviyyəsi kredit riskinin səviyyəsi ilə tərs mütənasibdir, yəni kreditin keyfiyyəti nə qədər yüksək olarsa, onun ödənilməməsi və ya gecikdirilməsi ehtimalı bir o qədər azdır [10, s. 167]. Odur ki, kredit portfelinin keyfiyyətinin yüksəldilməsi zəruri şərtdir ki, bunun üçün risklərin minimallaşdırılması tələb olunur. Bankda kredit risklərinin minimuma endirilməsinin əsas üsullarından biri kredit portfelinin diversifikasiyasıdır. Bu metod tənzimləmə üsulu kimi

müxtəlif kateqoriyalı borcalanlara kreditlərin verilməsini, habelə müştərilərə kreditin verilməsi şərtlərini nəzərdən keçirərkən onlara fərqli yanaşmanı nəzərdə tutur ki, bu da bir-biri ilə əlaqəli olmayan kredit obyektləri arasında riskin bölüşdürülməsinə kömək edir [11, s.74].

Kredit portfelinin diversifikasiyası dedikdə, kredit riskini minimuma endirmək üçün kreditlərin müxtəlif kateqoriyalar üzrə, o cümlədən borcalanlar, regionlar, təminat şərtləri, girov növləri, kredit alətləri, risk dərəcəsi, fəaliyyət növləri, habelə bir sıra digər amillər üzrə bölüşdürülməsi başa düşülür. Diversifikasiya kredit risklərini azaltmaqla yanaşı, həm də banklara bir borcalan tərəfindən kreditin ödənilməsinin gecikdirilməsi nəticəsində yarana biləcək mümkün itkiləri borc öhdəliklərini vaxtında yerinə yetirən digərləri hesabına kompensasiya etməyə imkan verir. Kredit portfelinin diversifikasiyası heç də həmişə risklərin minimuma endirilməsinə səbəb olmur, bəzən isə əksinə, onun artmasına kömək edə bilər. Xüsusilə, kifayət qədər yaxşı diversifikasiya edilmiş bank kredit portfeli ilə yüksək konsentrasiyanı müşahidə etmək olar. Kredit təşkilatları kredit portfelinin konsentrasiya səviyyəsinə nəzarət etməlidirlər, çünki hər bir bank əksər hallarda müəyyən bazar seqmentini təmsil edə bilən sabit müştəri bazası təşkil edir. Bununla əlaqədar olaraq, kredit təşkilatları öz kredit strategiyasını müəyyənləşdirərkən keyfiyyətini yaxşılaşdırmaq və kredit risklərini minimuma endirmək üçün kredit portfelinin orta səviyyədə təmərküzləşməsindən və diversifikasiyasından çıxış etməlidirlər.

Diversifikasiya təkcə sektorlar üzrə riskin yayılması deyil, həm də müxtəlif növ borcalanlar arasında riskin yayılmasıdır. Banklara korporativlər, kiçik bizneslər və fiziki şəxslər kimi müxtəlif risk profillərinə malik borcalanlara kredit vermək onların bir seqmentdən asılılığını azaltmağa kömək edir. Bankın kredit portfelinin diversifikasiyası əsasən bazar şərtləri, yəni bank xidmətlərinə tələb və təklif və onların qiymətləri arasında mövcud əlaqə ilə müəyyənləşdirilir. Bu prosesin qaydalarını bankın kredit siyasətinin hazırlanması, kredit məhsullarının inkişafı, eləcə də onun dəstəklənməsi və keyfiyyətinin yenidən qiymətləndirilməsi mərhələsində nəzərə almaq vacibdir. Portfelin diversifikasiyası xərcləri əməliyyat və monitorinq xərclərinin cəmi kimi müəyyənləşdirilə bilər. Kredit portfelinin diversifikasiyası kreditləşmənin prioritet istiqamətlərini, ölkənin sabit iqtisadi vəziyyətini dəstəkləmək üçün hansı sahəyə daha çox vəsait ayırmağa kömək edir. Kredit riskini azaltmaq üçün bank kredit siyasətinin təkmilləşdirilməsinə, yəni daha az riskli kreditləşmənin aparılmasına, müəyyən və zəmanətli təminatlı kreditlərin verilməsinə, bacarıqların artırılmasına diqqət yetirməlidir [7, s.70]. Kredit portfelinin diversifikasiyası aşağıdakı istiqamətlər üzrə aparıla bilər: fəaliyyət sahələrinə, coğrafi əraziyə, kreditlərin həcminə, kreditlərin verilməsi müddətinə, ödəmə müddətinə, sənaye xüsusiyyətlərinə, valyutaların növlərinə, qəbul edilən girovlara görə və s..

Fəaliyyət sahələri üzrə diversifikasiya sənaye, ticarət, nəqliyyat, tikinti və s. sahələr üzrə kreditlərin bölüşdürülməsini nəzərdə tutur. Diversifikasiyanın bu istiqamətində müştərilərin qiymətləndirilməsi və monitorinqinin təkmilləşdirilməsi üçün investisiya tələb edilə bilər. Kredit portfelinin sənaye diversifikasiyası iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən müştərilər arasında kreditlərin strukturlaşdırılması yolu ilə reallaşdırılır. Aydındır ki, kredit portfelinin optimal strukturu müvafiq kredit məhsullarının təşviqində məqsədli bazarlar və təklif üstünlükləri ilə sıx bağlıdır. Odur ki, bankın davranışı və kredit siyasətinin strategiya və taktikasına əsaslanaraq, iqtisadiyyatın bank üçün ən çox gəlir gətirə bilən sektorlarına üstünlük verilə bilər [8, s.189]. Kredit portfelinin ödəmə müddətləri üzrə diversifikasiyası xüsusi önəm daşıyır, çünki müəyyən müddət üçün nəzərdə tutlmuş kreditlər üzrə faiz dərəcələri daimi dalğalanmalara məruz qalır. Onu da bildirək ki, kredit müddəti artdıqca bankın fərdi kredit riskinin səviyyəsi artır. Əgər bank uzunmüddətli kreditləşdirməyə yönəlibsə, onun strukturunu tarazlaşdıracaq qısamüddətli kreditlərin kredit portfelinə daxil edilməsi faydalı hesab olunur. Kreditlər üzrə qəbul edilmiş girovun diversifikasiyası banka kredit üzrə girov rolunu oynayan borcalanın əmlak aktivlərindən istifadə etməklə kredit itkilərinin ödənilməsinə şərait yaradır. Məlum olduğu kimi, kredit portfelini təşkil edən kreditlər təminatlı, kifayət qədər təminatlı və təminatsız bölünür. Kreditlər arasında aztəminatlı və təminatsızların üstünlük təşkil etməsi bank üçün zərər ehtimalını artırır. Təminatlı kreditlər isə

girovun keyfiyyətindən, növlərindən və icra imkanlarından asılı olaraq dəyişir.

İnvestisiya portfelinin diversifikasiyası o zaman təzahür edir ki, onun tərkibində bir deyil, bir neçə növ qiymətli kağız var. Üstəlik, hər halda, diversifikasiya ilə, müxtəlif maliyyə aktivləri qruplarının seçiminə şaxələndirilmiş yanaşma səbəbindən risklər tamamilə yox olmur; Əsas məqsəd investisiya riskini dağıtmaqdır, baxmayaraq ki, investisiya riskini tamamilə aradan qaldırmaq mümkün deyil. Bu onunla bağlıdır ki, investisiya qoyuluşu zamanı iqtisadiyyatın ümumi vəziyyəti və ya konkret maliyyə bazarı ilə bağlı olan qeyri-şaxələndirilmiş (sistematik) risklər də yaranır. Diversifikasiya olunmamış risklərin müəyyənedici amilləri müharibələr, inflyasiya, ölkənin pul-kredit siyasətində dəyişikliklər, vergi qanunvericiliyi və s.Belə ki, investisiya portfeli formalaşdıqdan sonra portfelə daxil olan qiymətli kağızların xüsusiyyətləri xarici amillərin təsiri altında dəyişə bilər və buna görə də investor portfelin tərkibini və strukturunu (portfelin dəyərində qiymətli kağızların payını) daim dəyişməli, yəni onu diversifikasiya etməlidir.

Müasir dövrdə Azərbaycanda banklarin kredit portfelinin vəziyyəti və şaxələndirilməsi istiqamətləri

Azərbaycanda bank kreditlərini, demək olar ki, bütün regionlar və onların ev təsərrüfatları, sənaye, ticarət və xidmət müəssisələri, daşınmaz əmlak və icarə ilə əməliyyatlar aparan müəssisələr və s. cəlb edib. 2023-cü ildə Azərbaycanda bankların kredit portfeli 23979,1 milyon manat təşkil edib ki, bunun əsas hissəsi, yəni 13604,6 milyon manatı və ya 56,7%-i ev təsərrüfatlarının payına düşür (şəkil 1).



Şəkil 1. Ev təsərrüfatları üzrə kredit portfelinin həcmi, mln. manat

(Mənbə: AMB-nin statistik məlumat bazası əsasında tərtib olunub- https://uploads.cbar.az/)


Şəkil 1-dən görürük ki, Azərbaycanda bankların ev təsərrüfatları üzrə kredit portfeli qeyri-bərabər artmışdır, lakin buna baxmayaraq tədqiq olunan dövlər ərzində onların ölkənin banklardakı kredit portfelindəki həcmi ən çox xüsusi çəkiyə malikdir. Bankların ev təsərrüfatları üzrə kredit portfeli 2023-cü ildə ən çox olmuşdur ki, bu da 2015-ci ilə görə 61,6%, 2020-ci ilə görə 2 dəfə, 2022-ci ilə görə isə 24,1% çoxdur [1].

Digər tərəfdən isə əhali tərəfindən banklara qoyulmuş əmanətlərin həcmində də artım müşahidə olunub (şəkil 2).

Şəkil 2-dən görünür ki, tədqiq olunan dövrlərdə Azərbyacanda əhalinin banklara qoyduğu əmanətlərin həcmində bəzi illər istisna olmaqla artım davamlı olaraq olmuşdur. Belə ki, 2010-cu ildən başlayaraq artım olmuş, 2015-ci ildə manatın devalvasiyası səbəbindən 2016-cı ildə özündən əvvəlki ilə görə 21,4% azalmış, daha sonra yenidən artmağa başlamışdır. 2020-ci ildə isə COVİD-19 səbəbindən əhali gəlirləri azalmış, bu isə onların banklardakı əmanətlərinin həcminin əvvəlki ilə nisbətdə 5,3% azalmasına səbəb olmuşdur.

Kredit portfelinin regional diversifikasiyasını inkişaf etdirmək üçün regionlarda bankların və sahibkarlıq subyektlərinin inkişafına böyük önəm verilməlidir. Azərbaycanda bankların və onların

kredit portfelinin əsas hissəsinin Bakı şəhərində yerləşməsi digər regionlardakı müəssisələrin fəaliyyətinə mənfi təsir göstərə bilir.



Şəkil 2. Əhalinin banklardakı əmanətləri, mln. manat

(Mənbə: ARDSK https://www.stat.gov.az)

Çünki, regionlardakı bankların az olması buradakı müəssisələrin maliyyə-iqtisadi vəziyyətini Bakıdakı iri bankların siyasətindən asılı edir [6, s.15]. Beləliklə, bankların kredit portfelinin əsasən Bakı şəhərində yerləşdirildiyini nəzərə alaraq, onun digər regionlar üzrə də diversifikasiyasının sürətləndirilməsi əsas şərtlərdəndir. Lakin kredit porteflinin diversifikasiyasını elə reallaşdırmaq lazımdır ki, onun keyfiyyəti aşağı düşməsin.

Banklar arasında maliyyə balansının pozulması dövlətin kredit sisteminə ümumi inamı azaldır və bu, iqtisadiyyatın digər sahələrində də hiss olunur. İqtisadiyyatın bazar iqtisadiyyatına keçidindən sonra kommersiya banklarının mənfəətini artırmaq və risklərini minimuma endirmək məqsədilə kredit portfelinin idarə edilməsi mexanizminin hazırlanması və təkmilləşdirilməsi problemi aşkar əhəmiyyət və aktuallıq qazanmışdır. Müəyyən meyarlara cavab verən kredit portfelinin olması yalnız bankın kredit siyasətinin keyfiyyətini deyil, habelə hesabat dövrü üçün kredit fəaliyyətinin nəticələrini proqnozlaşdırmağa imkan verir. Kredit portfelinin keyfiyyətinə çox diqqət yetirilməlidir. Keyfiyyətsiz kredit portfeli, əsassız kreditlər (kredit siyasətinin müddəalarının pozulması ilə verilmiş) və etibarsız borcalanlara kreditlərin verilməsi banklarda maliyyə balansının pozulmasına səbəb ola bilər.

Kredit portfelinin keyfiyyətinin aşağı düşməsi istiqamətində formalaşan tendensiya, yəni vaxtı keçmiş borcların bir qədər artması və nəticədə kreditlər üzrə faiz gəlirlərinin azalması bankı potensial borcalanlara qarşı tələbləri sərtləşdirməyə sövq edir. Kredit portfelinin diversifikasiyası yalnız onu təşkil edən kreditlər bir-birindən müstəqil olduqda və ya çoxistiqamətli əlaqə olduqda portfel riskini azaltmağa imkan verir. Beləliklə, portfel bir-biri ilə minimal və ya müxtəlif istiqamətlərdə əlaqəli olan sənayelərdən formalaşmalıdır. Bu portfel strukturu sənayelərdən birində neqativ hallar baş verdikdə itkilərin minimuma endirilməsini təmin edəcək.

Optimal kredit portfelini formalaşdırmaq üçün bankın müvafiq kredit siyasətini işləyib hazırlaması - bazar seqmentlərini düzgün seçmək və fəaliyyət strukturunu müəyyənləşdirmək vacibdir. Bu və ya digər tədbirlər banklara rəqabətqabiliyyətliliyini və davamlı inkişafını təmin edə bilər. Rəqabətqabiliyyətli mövqeyini itirməmək üçün banka hüquqi şəxslər üçün kredit məhsulları xəttini genişləndirməklə kredit portfelini diversifikasiya etmək də tövsiyə oluna bilər. Bu tədbir kreditlər üzrə faiz gəlirlərini artırmağa və bankın fərdi müştərilərin loyallığından asılılığının dərəcəsini azaltmağa kömək edəcək. Bundan əlavə, likvid olmayanları dərhal xidmətlər siyahısından çıxarmaq və marketinq üsulları vasitəsilə populyar məhsulların cəlbediciliyini artırmaq üçün kredit məhsullarının gəlirliliyinə mütəmadi olaraq nəzarət etməyə dəyər.

Nəticə

Kredit portfelinin diversifikasiyası istiqamətlərinin səmərəli şəkildə reallaşdırılması tələb olunur ki, bu da məhz kredit siyasətindən xeyli asılıdır. Bu qeyd olunanlar baxımından, kredit siyasətinin təkmilləşdirilməsi tələb olunur ki, bu da bir qrup istiqamətlərdə tədbirlərin görülməsini şərtləndirir:

- borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsi və kreditləşmə şərtlərinin hazırlanması zamanı onun nəticələrinin nəzərə alınması;
- əlavə təminatların alınmasına və kredit risklərinin azaldılmasına imkan verən kreditlərin ödənilməsinin təmin edilməsinin optimal formalarının tətbiqi;
- portfelin daha çox şaxələndirilməsi məqsədilə kredit resurslarının investisiya istiqamətlərinin və verilən kreditlərin məqsədyönlülüyünün dəyişdirilməsi;
- borcalanların kredit müqavilələrinin şərtlərinə əməl etməsinə ilkin və sonrakı nəzarətin gücləndirilməsi;
- kredit prosesinin təşkili elementlərinin təkmilləşdirilməsi və s..

ƏDƏBİYYAT

1. AMB-nin statistik məlumat bazası əsasında tərtib olunub: [Elektron resurs] / https://uploads.cbar.az/assets/aa13eadd83ce9ae4392736ec0.pdf .
2. AMB-nin statistik məlumat bazası: [Elektron resurs] / https://uploads.cbar.az/assets/52238f3796853677ac57679d8.pdf /.
3. ARDSK: [Elektron resurs] / https://www.stat.gov.az/source/finance/ARDSK.
4. Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qaydanın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin Qərarı. – Bakı, – 22 iyul 2022.
5. Mirzəzadə, F.A. Azərbaycan iqtisadiyyatında modernləşmə prosesinin maliyyə-bank mexanizmlərinin təkmilləşməsi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. Avtoreferatı./ – Bakı, 2018. – 26 s.
6. Musayev, S.İ. Real iqtisadiyyat sektorunda kommersiya banklarının rolunun artırılması. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. işinin avtoreferatı./ – Bakı, 2018. – 24 s.
7. Воробьева, Е.И. Оценка кредитного портфеля коммерческого банка / Е.И. Воробьева, Д. Кутьина // Науковий вісник: фінанси, банки, інвестиції. – 2014. № 2(27), – с. 67-71.
8. Идрисова, С.К. Формирование и управление кредитным портфелем банка в современных условиях / С.К. Идрисова // Финансовые инструменты устойчивого экономического развития регионов РФ: сборник статей Второй Всероссийской научно-практической конференции, – Махачкала, – 03 мая 2017, – с. 187-191.
9. Назекова, М.Т. Анализ качества кредитного портфеля и оценка кредитного риска / М.Т. Назекова, А.С. Советбекова // М. Рыскулбеков атындагы Кыргыз экономикалык университетинин кабарлары. – 2022. № 3(56), – с. 47-50.
10. Ноздрина, А.Н. Кредитный риск как важнейший показатель оценки кредитной деятельности банка / А.Н. Ноздрина, И.Н. Третьякова // Актуальные вопросы устойчивого развития современного общества и экономики: Сборник научных статей 2-й Всероссийской научно-практической конференции. В 3-х томах, – Курск, – 27–28 апреля 2023. – с. 166-169.
11. Рабаданова, Д.А. Управление кредитным портфелем коммерческого банка / Д.А. Рабаданова, Р.М. Хидирова // Экономика и управление: проблемы, решения. – 2018. – Т. 6, № 8, – с. 71-75.

Лала Абдулрахим кызы Шахбазова
Диссертант Лянкоранского Государственного Университета,
Азербайджанская Республика,
E-mail: shahbazova1995@gmail.com

Пути диверсификации кредитного портфеля банков Азербайджана

Резюме

Цель исследования заключается в определении путей диверсификации кредитного портфеля банков Азербайджана.

Методологии исследования. В ходе подготовки статьи автором использовались методы анализа, синтеза, сравнения и обобщения. Наряду с этим были даны ссылки на научные работы и аналитические материалы по проблемам диверсификации кредитного портфеля банков Азербайджана.

Практическое значение исследования в текущий период связано с улучшением структуры и разработкой более эффективных механизмов кредитного портфеля банков.

Результаты исследования – полученные результаты могут быть полезны при разработке более эффективных мер и механизмов в части совершенствования кредитной политики банков и диверсификации существующей структуры кредитного портфеля в период глобальных вызовов.

Оригинальность и научная новизна исследования. Значимым научным новшеством является обоснование того, что диверсификация кредитного портфеля банков является неизбежным процессом в новых условиях. В связи с этим были исследованы и объяснены недостатки кредитной политики банков и проблемы диверсификации кредитного портфеля. В современное время на первый план выходит важность комплексного и системного подхода к проблемам кредитного портфеля. В конце статьи были даны рекомендации и предложения в направлении диверсификации кредитного портфеля банков Азербайджана в условиях глобальных преобразований и новых вызовов.

Ключевые слова: Азербайджан, банки, банковский кредит, кредитный портфель, диверсификация кредитного портфеля, проблемы кредитного портфеля.

Lala Abdulrahim Shahbazova,
Doctoral student of Lankaran State University,
Azerbaijan Republic,
E-mail: **shahbazova1995@gmail.com**

Ways to diversify the loan portfolio of banks in Azerbaijan

Summary

The purpose of the research - consists of identifying ways to diversify the loan portfolio of banks in Azerbaijan.

Research methodology - The methods of analysis, synthesis, comparison and generalization were used in the article. Along with this, references were given to scientific works and analytical materials on the problems of diversification of the loan portfolio of banks in Azerbaijan.

The applied significance of the research - in the current period is associated with improving the structure of the banks' loan portfolio and developing more effective mechanisms for the loan portfolio.

The results of the research – it can be noted that the obtained results can be useful in developing more effective measures and mechanisms in terms of improving the credit policy of banks and diversifying the existing structure of the credit portfolio during the period of global challenges.

Originality and scientific novelty of the research - it should be noted that as an important scientific innovation, it is a justification for the fact that diversification of the loan portfolio of banks is an inevitable process in the new conditions. In this regard, the shortcomings of the credit policy of banks and the problems of diversification of the loan portfolio were investigated and explained. In modern times, the importance of a comprehensive and systematic approach to the problems of the loan portfolio comes to the fore. In the context of global transformations and new challenges, recommendations and proposals were given in the direction of diversification of the loan portfolio in the banks of Azerbaijan.

Key words: Azerbaijan, banks, bank loan, loan portfolio, loan portfolio diversification, loan portfolio problems.